(Əvvəli 3-cü səhifədə).

# Könlüm dilə gəldi elin səsindən, Səs aldım gürşadın selin səsindən

Xudayarın qoxusu var idi həyətdə, onun səsi vardı sanki. Həyətin, evin qapısından içəri girəndən sonra belə qarşılaşdığım hər Xudayar eksponatı onun nəğməsini oxuyurdu: "Dastana döndü!" -Dastana dönmüşdü evdə, dəhlizdə hər yer sanki... Onun ev muzeyini təsvir etmək ağ vərəqlərə sığmaz, doğrudan da dastanlara sığar. Çünki hər şəkil, hər əşya bir dastan qəhrəmanı. Burada Xudayarın əzizləri, şəxsi şəkil və əşyaları ilə bahəm şəhid dostları və silahdaşları da əks olunmuşdu...



Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimov isə hər guşədə öndə idi. Bu ev muzeyin təsviri yalnız canlı şəkildə gözlə görülərək öz ifadəsini tapa bilər. Şəhidlərin ünvanı olmaz, bir ünvan var vətən! Şəhidlərin kimliyi olmaz-kimlik şəhid! Bax, bu evin canlı şahidi olan hər kəs yalnız belə düşünər.

Belə bir muzeyin təşkil olunduğu evdə yaşayan şəhid əzizləri həyatı, gözəllikləri hansı şəkildə görər, duyar, eşidər, düşünər; bax, bunu yalnız bir ifadə ilə deyə bilərik: Şəhid gözü, səsi, diləyi ilə.

Bu evdə təkcə Xudayarın deyil, 3 mindən çox şəhidin, Polad öndə olmaqla nəğməsi var.

Şair B. Vahabzadə demiş:

***Təbiətin könül açan,***
***Min rəngli, min səsi var.***
***Hər üreyin min arzusu,***
***Min səsli nəğməsi var...***

**Ensiklopedik adla**

Xudayar adını indi hamı tanıyır, təkcə onun ecazkar səslə oxuduğu mahnı ilə, yoxsa üzünün mələk ifadəsi ilə?! Yox, həyat salnaməsi, qəhrəmanlığı, 22 yaşın zəngin tarixçəsi onu tanıtdı Azərbaycana.

Bu həyatı ətraflı yazmaq istəsək, həqiqətən də dastanlar yazarıq.

1998-ci ildə, avqustun 12-də Bərdənin Qazıqurdalı kəndində doğulmuşdu, ailənin 4-cü övladı idi-Xanım, Yusif, Məhəmməd və Xudayar.

Atası Müslüm Xudayar hələ 24 günlük körpə ikən, 31 yaşında qəflətən dünyasını dəyişdi. Evin böyük övladı Xanımın 8 yaşı vardı... Müslüm Yusif oğlu Qurbanov musiqiçi - qarmon ifaçısı idi.

4 övladı ilə tək qalan İradə xanım ana-atası ilə birgə yaşayır. Övladlarını onlarla bərabər böyüdür, körpə Xudayarı nənəsinin himayəsinə verərək işləyir, onlara həm ata, həm ana olur. Xudayarın nənəsi Tovuz xanımgil 1992-ci ildən yaşadığı Ağdam rayonunun Seyidli kəndindən məcburi köçkün düşmüşdü. Köçkün həyatı yaşayır və o illərin acısı, qızı İradənin "qəm yükü", yaşadığı bütün çətinliklər Xudayarın ölümü qarşısında bir heçə dönür. Xudayar əsl bir igid oğul kimi böyümüşdü. Tovuz xanımla, İradə xanımla və Xudayarın bacısı Xanım, qardaşı Yusiflə söhbət zamanı da şəhidimiz haqqında daha çox öyrəndik, onun qısa, ancaq yaşından böyük həyat xatirələrini dinlədik. 22 yaşında bir gəncin yaşayış tərzinin onu yaşından tez böyütdüyünün anlamını hiss etdik. Öz yurdunun- Qarabağın hər qarışını nənəsi və anasının söhbətləri ilə qarış-qarış gəzən Xudayar bu torpaq uğrunda vətənpərvərlik şücaəti ilə döyüşdü. Ata babasının, atasının musiqi duyumu ona sanki qanı ilə keçmişdi və bu qan bağlılığının ecazkarlığı onun nəğmələrində fərqli şəkildə, özünəməxsus bir tempdə hiss olunurdu. Bax, buna görə onu məhz qəhrəman döyüşçüdən çox səsi tanıtdı hər kəsə...



Qəhrəmana çevirdi, Vətən üçün əsl vətəndaş kimi yetişməsini ifadə etdi bu səs... Bu səsdə döyüş şücaəti, zəfər himni səsləndi sanki. Qarabağın, işğalda olan torpaqların azadlıq ruhu, Zəfər tarixi hiss olundu. Özü görməsə də ruhu duydu, dastana çevirdi 44 günlük müharibəni və onun Zəfər tarixini. Sanki bu onun zəngulələrində özünü biruzə vermişdi!

Xudayar "dastana döndü" dedi, ancaq Xudayar dastanı hələ yarımçıq.

İllər keçəcək, bu nəğmənin, bu zəngulənin qəhrəmanlıqla vəhdətli bir dastanı yaranacaq. Onun ziyarətinə gələn vətənpərvər insanların sevgisiylə bu dastan nəsillər boyu oxunacaq, yaşayacaq, tarixə Xudayar dastanı kimi ensiklopedik bir adla yazılacaq! Həm də müxtəlif tərzlərlə, qələmlərlə; yalnız ad eyni olacaq- Şəhid Xudayarın qəhrəmanlıq dastanı- Keçdi xəyalımdan öz doğma yurdum...

**Dastana döndü!...**

Dastana döndü deyən kimi, Xudayarın əksi göz önünə gəlir və həmişə gələcək, məsum və nikbinlik rəmzi kimi! Şair M. Araz bu ifadəni sanki illər öncə ona həsr edərək yazmışdı:

***Baxışında üfiqlərin baxarı,***
***Gülüşündə çaylarının axarı...***

**BİBİXANIM.**

# Şuşadan dünyaya mesaj

Azərbaycan təkcə döyüş meydanlarında deyil, həyatın bütün sahələrində bacarıq və böyük məharət nümayiş etdirir. Bu sahələrdən ən əhəmiyyətlisi millət quruculuğudur.

22 aprel 2022-ci ildə azad edilmiş Şuşada Dünya azərbaycanlılarının V Qurultayı keçirildi. Bu baxımdan V qurultay son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad olunmasından sonra ilk böyük görüşü idi.

Beləliklə, dünya azərbaycanlıları bu dəfə Şuşada toplaşırlar. Ona görə bu tədbirin böyük rəmzi mənası var. Çünki Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti, liderliyi, düşünülmüş və qətiyyətli siyasəti sayəsində torpaqlarımızın işğaldan azad olunması bu reallığı mümkün etdi.

Qurultay tarixə qalib sərkərdə İlham Əliyevin təbirincə desək, Zəfər qurultayı kimi daxil oldu.

Müstəqil Azərbaycan dünya azərbaycanlılarının I Qurultayından bu günə qədər çox böyük bir yol keçmişdir. 2001-ci ildən bu günə qədər keçən dövrdə qazandığımız ən böyük qələbəmiz millət quruculuğundakı uğurlarımızdır.

Ölkəmiz 30 ildə çox böyük inkişaf yolu keçmişdir. Sovetlər İttifaqının süqutundan sonra digər keçmiş müttəfiq respublikalarda olduğu kimi Azərbaycanda da sosial iqtisadi vəziyyət böhran içində idi. Ölkədə hakimiyyət uğrunda çəkişmələr, qarşıdurmalar gedirdi. Bundan istifadə edən düşmən qüvvələr əzəli torpaqlarımızı işğal etdi, milyondan artıq soydaşımız qaçqın, köçkün vəziyyətinə düşdü. Barbar düşmən əsrlərin yadigarı olan maddi-mənəvi abidələrimizi oğurladı və məhv etdi. Beynəlxalq aləmdə də Azərbaycana qarşı münasibət, baxış dəyişmişdi. İkili standartlar ölkəni çıxılmaz vəziyyətə gətirmişdi. Etnik, dini, siyasi zəmində böhran yaranmışdı. Ölkə uçurum qarşısında idi.

Belə ciddi proseslərin getdiyi bir vaxtda dövləti yalnız müdrik siyasət, ağıllı güc xilas edə bilərdi. Bu güc Heydər Əliyev idi.

Nəhayət , xalqın təkidli çağırışı ilə Ümumilli Lider Heydər Əliyev hakimiyyətə gəldi. Tezliklə digər problemlərin həlli ilə yanaşı diasporla bağlı məsələlər də öz həllini tapdı.

Ulu öndər hələ o zamanlar öz çıxışlarında Azərbaycanın qüdrətli ölkəyə çevriləcəyini, beynəlxalq nüfuzunun bərpa olunacağını, torpaqlarımızın azad ediləcəyini, insanların öz doğma torpaqlarına qayıdacağını söyləmişdi. Və bu uğurlu yolun başlanğıcı qoyulmuşdu. Tez bir zamanda düşünülmüş siyasi xətt sürətlə irəlilədi. Uğurlar əldə edildi. Ümumilli lider Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyevin hakimiyyətə gəlməsi ilə bu iş daha da sürətləndi. Ölkə başçısının düşünülmüş və qabaqlayıcı siyasəti, ordu-xalq birliyi, xalqın dövlət siyasətini dəstəkləməsi və Prezidentə inamı bu inkişafın əsasını təşkil edirdi. Diasporla bağlı məsələlərin həlli də bütün bu qeyd olunanlarla vəhdət təşkil edirdi.

44 günlük Vətən müharibəsi dünyanın aparıcı ölkərində diasporanın fəallığının artması ilə müşayiət olunurdu. Vətən müharibəsi xalqımızın milli həmrəyliyinin təntənəsi oldu. Həmin günlərdə dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar tarixdə görünməmiş dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin eşidilməsi üçün səylərini əsirgəmədilər. Diaspor təşkilatlarımızın dünyanın 30-dan çox ölkəsində keçirdikləri 200-dək aksiyada 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak etdilər. Eyni zamanda müharibə günlərində 300-ə yaxın diaspor təşkilatı müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərmişdilər. Azərbaycan diasporası post müharibə dövründə keçirdikləri kütləvi tədbirlərdə erməni haqsızlığını, şovinizmini pisləyən çıxışlar edir, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək Azərbaycanın haqq səsini, haqq işini yaşadıqları ölkələrin ictimaiyyətinə çatdırırdılar.

Beynəlxalq tribunalarda Azərbaycanın haqq səsi eşidilməyə başlamışdı. Azərbaycanın mövqeyini dəstəkləyən və haqq-ədalətə söykənən qətnamələr qəbul edilirdi. Ermənistanın vandal işğalçı siyasəti artıq heç kimə sirr deyildi. Erməni riyakarlığı ifşa olunurdu. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan təkcə Ermənistanla yox, eyni zamanda dünya ermənilərilə, Ermənistan haqsızlığını müdafiə edən beynəlxalq dövlətlər və təşkilatlarla da mübarizə aparırdı.

Müharibə qələbə ilə başa çatsa da ölkəmizə qarşı olan ərazi iddiaları hələ başa çatmamışdır. Ancaq erməni faşistləri birdəfəlik anlamalıdırlar ki, postmüharibə dövründə göstərilən səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırılacaqdır.

Dünyanın 65 ölkəsindən 400-dən çox soydaşımızı bir araya gətirən Dünya Azərbaycanlılarının Zəfər Qurultayında Müzəffər Komandan İlham Əliyev həm Vətən müharibəsindəki Böyük Qələbəni, postmüharibə dövrünün yeni reallıqlarını qiymətləndirdi, həm də dünya birliyinə açıq mesajlar ünvanladı.

Postmünaqişə dövrünün reallıqlarını dəyərləndirən Prezident məğlub Ermənistan və onun havadarlarına bir daha çatdırdı ki, bundan sonra hansısa siyasi oyun oynamaq mənasızdır. Qarabağ münaqişəsi bitib, status-kvonu Azərbaycan öz gücünə dəyişib və hər kəs bu reallıqları qəbul etməlidir. Ermənistan isə İlham Əliyevin 5 prinsipdən ibarət təkliflərini özündə ehtiva edən sülh müqaviləsini imzalamağa məhkumdur. Çünki istənilən müharibənin sonunda diktə edən qalib tərəf olur.

Zəfər qurultayı yeni reallıqlar şəraitində Azərbaycan diasporunun fəaliyyəti üçün həm də yol xəritəsi oldu.

Ölkə Prezidenti xaricdə yaşayan gənc azərbaycanlılar haqqında çıxış edərkən bildirdi ki, onlar həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməli, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, milli maraqların müdafiə edilməsi dövləti daha da gücləndirir.

Beləliklə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında böyük rol oynayan diaspor üzvləri geri döndükdən sonra yeni layihələr işləyib hazırlamalı fəaliyyətlərini müasir dövrün tələblərinə uyğun formada qurmalıdırlar.

Müzəffər Komandan eyni zamanda Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələrə səslənərək bildirdi ki, "Həmin qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. Vətən müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq".

Beləliklə, Zəfər qurultayı Azərbaycan diasporunun tarixində yeni bir mərhələnin başlanğıcı oldu. İlham Əliyevin yeni dövrün inkişaf strategiyası ilə bağlı bütövlükdə dünya azərbaycanlıları üçün əsas hədəfləri müəyyənləşdirdi, tövsiyə və tapşırıqlarını verdi, eyni zamanda iqtisadi cəhətdən tənəzzülə uğrayan məğlub Ermənistana sonuncu şansı verdi.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**